**AZƏRBAYCAN RESPUBLİKASI**

***Əlyazması hüququnda***

# ELEKTRON İNFORMASİYA MƏDƏNİYYƏTİ KONTEKSTİNDƏ XALQ DEYİMLƏRİ

İxtisas: 5719.01 – Folklorşünaslıq

Elm sahəsi: Filologiya

İddiaçı: **Günay Mətləb qızı Yusifzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Müasir folklor" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Filologiya elmləri doktoru, professor
**Füzuli Xeyrulla oğlu Gözəlov**

**Rəsmi opponentlər:** Filologiya elmləri doktoru, professor
**Ramazan Oruc oğlu Qafarlı**

Filologiya elmləri doktoru, professor
**Xatirə Bədrəddin qızı Bəşirli**

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Aytən Cəfər qızı Cəfərova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** Filologiya elmləri doktoru, professor
______________________ **Seyfəddin Gülverdi oğlu Rzayev**

**Dissertasiya şurasının elmi katibi:** Filologiya üzrə fəlsəfə doktoru
______________________ **Nizami Şamil oğlu Adışirinov**

**Elmi seminarın sədri:** Filologiya elmləri doktoru, professor
______________________ **Əfzələddin Dağbəyi oğlu Əsgərov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir folklorşünaslıqda aktual tədqiqat istiqamətlərindən biri elektron mühitdə formalaşan folklor yaradıcılığı və fəaliyyəti ilə bağlı məsələlərin öyrənilməsidir. Bu kontekstdə "elektron informasiya mədəniyyəti" anlayışı çərçivəsində "elektron mühit", "virtual folklor" və "internet folkloru" kimi terminlər nəzəri baza kimi qəbul olunmuş və bu müstəvidə yaranan yeni folklor nümunələri elmi tədqiqat predmetinə çevrilmişdir.

Folklorşünaslıq elminin əsas istiqamətlərindən biri müasir folklor nümunələrinin sistemli şəkildə tədqiqi və təhlilidir. Bu kontekstdə kollektiv yaradıcılığın məhsulu olan xalq deyimlərinin mövzu və ideya xüsusiyyətləri, həmçinin onların məzmun və forma baxımından xarakterik cəhətləri müxtəlif aspektlərdən araşdırılmışdır. Ənənəvi folklor nümunələrinin toplanması, mənşəyinin izahı və semantik analizi istiqamətində mühüm tədqiqatlar aparılmışdır. Kiçik həcmli olsa da, dərin məzmun tutumu ilə seçilən və milli-mənəvi dəyərlər sistemində xüsusi yer tutan xalq deyimləri zamanla nəsildən-nəslə ötürülərək müasir dövrə qədər gəlib çatmışdır. Müəllifliyi məlum olmayan bu nümunələr informasiya-kommunikasiya texnologiyalarının inkişafı fonunda internet mühitində yeni forma və məzmunda yenidən aktuallaşmış, spesifik xüsusiyyətlər qazanaraq transformasiyaya uğramışdır. Tədqiqatın əsas məqsədlərindən biri də xalq deyimlərinin müasir folklor nümunəsi kimi internet mühitindəki mövcudluğunu, bu mühitdə necə yayılıb inkişaf etdiyini və yeni nümunələrin semantik-funksional xüsusiyyətlərini araşdırmaqdan ibarətdir.

Klassik folklordan fərqli olaraq, müasir dövrdə internet mühitində formalaşan xalq deyimlərinin yayılma və ötürülmə prosesi daha sürətli və geniş miqyaslı şəkildə baş verir. Bu xüsusiyyətlər mövzunun aktuallığını artırmaqla yanaşı, şifahi xalq ədəbiyyatının bu sahəsinə yeni tədqiqat yanaşmalarını zəruri edir. Bu kontekstdə xalq deyimlərinin internet mühitindəki mövcudluğu və istifadəsi elmi

təhlil predmetinə çevrilmişdir. Ənənəvi və virtual folklorun müqayisəli şəkildə öyrənilməsi kompleks və çoxsəviyyəli yanaşma tələb edir. İnformasiya-kommunikasiya texnologiyalarının təqdim etdiyi imkanlar sayəsində internet mühitinə transformasiya olunan deyimlər sistemli və müqayisəli şəkildə araşdırılmışdır. Bu tədqiqatlar göstərir ki, folklorun rəqəmsal mühitdə inkişafı onun davamlı yenilənməsinə və məzmun baxımından zənginləşməsinə şərait yaradır. İnternetin sürətli inkişaf etdiyi, sosial şəbəkə istifadəçilərinin artdığı və kommunikasiya platformalarının elektronlaşdırıldığı hazırkı mərhələdə folklorun da bu rəqəmsal məkanda mövcudluğunu qoruması və yeni formalar qazanması qanunauyğun və təbii bir proses kimi qiymətləndirilməlidir.

Müasir folklorşünaslıq çərçivəsində internet mühitində yaranan folklor mahiyyətli nümunələrin təhlili, bu nümunələrin verbal folklordan fərqlənən cəhətlərinin müəyyənləşdirilməsi, eləcə də transformasiyaya uğrayan deyimlərin məna və forma baxımından keçirdiyi dəyişikliklərin araşdırılması əsas tədqiqat istiqamətlərindən birini təşkil edir. Virtual folklorun sistemli şəkildə tədqiqi XX əsrin sonlarından etibarən aktuallaşmağa başlamış, bu prosesə əsas səbəb kimi internet texnologiyalarının inkişafı göstərilmişdir.

Xüsusilə XXI əsrdə müşahidə olunan sürətli texnoloji tərəqqi və sosial kommunikasiyanın genişlənməsi folklorun yeni formalarının meydana gəlməsinə səbəb olmuşdur. Bu şəraitdə formalaşan xalq deyimlərində, ənənənin davamı ilə yanaşı, bəzi hallarda ondan uzaqlaşaraq yeni məzmun və baxış bucağı ilə zənginləşmiş yanaşmalar müşahidə olunur. Bu cür transformasiyalar, klassik folklorun müasir rəqəmsal kontekstdə hansı şəkildə yaşadığını və bədii-estetik cəhətdən necə yenidən formalaşdığını göstərmək baxımından əhəmiyyətlidir.

Bu səbəbdən, ənənəvi və virtual folklorun xüsusiyyətlərini müqayisəli şəkildə araşdırmaq, onların ortaq və fərqli cəhətlərini müəyyənləşdirmək müasir Azərbaycan folklorşünaslığının qarşısında duran mühüm elmi vəzifələrdən biri kimi çıxış edir. Həm klassik, həm də rəqəmsal mühitdə mövcud olan xalq deyimlərinin paralel

şəkildə təhlili onların müasir dövrdə aktuallığını daha da ön plana çıxarır.

Qloballaşmanın intensivləşdiyi müasir şəraitdə xalq deyimlərinin geniş auditoriyalara təqdim olunması və beynəlxalq folklor kontekstində layiqincə təmsil olunması zəruridir. Bu baxımdan, internet mühitində yayılan Azərbaycan xalq deyimləri digər xalqların folklor nümunələri ilə müqayisəli şəkildə təhlil edilməli və sosial şəbəkələrdə təqdim olunan folklor obrazlarımızın bədii-estetik potensialı, mövzu zənginliyi və simvolik dəyəri elmi əsaslarla göstərilməlidir. Belə müqayisəli tədqiqatlar, bir tərəfdən Azərbaycan folkloruna dünya alimlərinin marağını artırır, digər tərəfdən isə milli mədəniyyətimizin qloballaşan dünyada özünəməxsusluğunu və davamlılığını qoruyan əsas faktorlardan biri kimi çıxış edir.

Mövzunun Azərbaycan folklorşünaslığında öyrənilmə səviyyəsinə gəldikdə, qeyd etmək lazımdır ki, təqdim olunan dissertasiya işi müasir folklor nümunələrinin elektron informasiya mədəniyyəti kontekstində tədqiqi məqsədilə folklorun funksiyalarını və transformasiya mexanizmlərini müəyyənləşdirməyə yönəlmişdir. Bu istiqamətdə, internet folkloru və onun nəzəri-metodoloji əsaslarının, həmçinin Azərbaycandilli virtual mühitdə baş verən folklor proseslərinin araşdırılmasında Hikmət Quliyevin tədqiqatlarının xüsusi əhəmiyyət kəsb etdiyi qeyd olunmalıdır. Onun müasir fəlsəfi-ideoloji yanaşmalar əsasında apardığı təhlillər bu sahənin elmi əsaslarının formalaşmasına töhfə vermişdir. Lakin mövzu üzrə – yəni xalq deyimlərinin virtual folklor kontekstində, xüsusilə də elektron mühitdə sistemli şəkildə tədqiqinə dair əvvəlki illərdə elmi araşdırmaların aparılmadığı müşahidə olunur. Dissertasiya çərçivəsində bu boşluq nəzərə alınaraq, xalq deyimləri elektron informasiya mədəniyyəti kontekstində – yəni internet mühitində yaranan, yayılan və transformasiyaya uğrayan nümunələr əsasında araşdırılmışdır.

Tədqiqatda internet mühitindən götürülən və ya təhlil edilən hər bir folklor nümunəsi ənənəvi folklordakı müvafiq ekvivalentləri ilə müqayisəli şəkildə təhlil edilmiş, onların forma və məzmun

baxımından fərqli xüsusiyyətləri müəyyən edilmişdir. Bu proses çərçivəsində forma-struktur elementləri və semantik məzmunun sistemli şəkildə analizi aparılmış, folklorun rəqəmsal transformasiyası nəzəri əsaslarla izah olunmuşdur.

Tədqiqat işində dünya ölkələrinin bu sahədə apardığı araşdırmaların elmi nəticələrindən nəzəri baza kimi istifadə edilmiş, xalq deyimlərinə, müasir dövrdə yaranan və internet mühitində formalaşan folklor mətnlərinə müraciət edilmişdir. Bu sahədəki əhəmiyyətli tədqiqatlara, xüsusilə Mixail Alekseyevskiy[1], Vera Rukomoynikova[2], De Vos Gail Arlene[3], Alan Dundes[4], Simon Bronner[5], Trevor Blank[6], Mehmet Emin Bars[7], Ahmet Özgür Güvenc[8], Füzuli Bayat[9], Hikmət Quliyev[10] və digər mütəxəssislərin dəyərli təcrübələrinə istinad edilmişdir.

---

[1] Alekseyevskiy, M.D. Folklorda İnternet mi, internet folklore mu? (Çağdaş Folkloristik və Sanal gerçəklik, çev: Atilla Bağcı) // Uluslararası Türk Dünyası Kültür Araştırmaları Dergisi, – 2015. 1 (1), – s. 199–219.

[2] Рукомойникова, В.П. Виртуальный фольклор: за ипротив. Монография. /–Йошкар–ола. – 2004. – 128 с; Рукомойникова, В.П. Самодеятельное творчество пользователей сети Интернет как явление постфольклора // Первый Всероссийскийконгресс фольклористов: Сб. докладов. М.:Государственный республиканский центр русского фольклора, – 2006. Т. 3. – с. 289–297.

[3] De Vos, G.A. Folklor və internet. Netlore (çev. Nurulhude Baykal) // Ankara: Geleneksel Yayınları, – 2018. – s. 9–14.

[4] Dundes, Alan. Halk kimdir? Çeviren: Metin Ekici. Millik Folklor Dergisi. 1998, sayı 37, s.139–153; Дандес, А. Фольклор: семиотика и/или психоанализ (Сборник статьей) /– Москва: Восточная литература РАН, – 2003. – 283 с.

[5] Bronner, Simon J. Digitizing and Virtualizing Folklore. Folklore and the İnternet // Utah State University Press, Logan, Utah, – 2009, – p. 21–66.

[6] Trevor, J.B. Toward a Conseptual Framework for the Study of Folklore and the Internet. Folklore and the Internet: Vernacular Expression in a Digital World // – Logan, Utah: Utah State University Press. – 2009. – p.1–20.

[7] Bars, M.E. İnternet folkloru: Netlore // Uluslararası Dil, edebiyyat ve halkbilimi araştırmaları dergisi, – 2018. – s. 160–179.

[8] Güvenc, A.Ö. İnternet folkloru üzerinə önerilem bir termin: e–folklor // Atatürk Universitesi Sosyal Bilimler Enistitüsü Dergisi, – 2014, №18. – s. 31–46.

[9] Bayat, F. Müasir folklorun bəzi məsələləri // – Bakı: Folklor İnstitutu, Dədə Qorqud, –2017. № 1, s. 46–54 // Bayat, F. Folklordan postfolklora, Folklorşünaslıq: problemlər, tədqiqlər // Bakı: Dədə Qorqud, – 2018. № 2, – s. 39–

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın əsas obyekti virtual mühitdə yaranan xalq deyimləridir. Bu kontekstdə, internet mühitində formalaşan yeni deyimlər və folklor mahiyyətli mətnlər tədqiqatın mərkəzində durur. Eyni zamanda, tədqiqatın aparılması zamanı internet mühitində təzahür edən müxtəlif rəqəmsallaşmış folklor nümunələri, o cümlədən şəkilli folklor mətnləri, fotolar və memlər də tədqiq edilmişdir.

Tədqiqatın predmetini, virtual folklorda yaranan xalq deyimlərinin məzmun və forma baxımından təhlili təşkil edir. Bu deyimlərin verbal folklordan fərqləndirən xüsusiyyətlərinin müəyyənləşdirilməsi, onların təzahür və təcəssüm olunma prosesində keçirdikləri dəyişikliklər, həmçinin müasir dövrdə yaranan yeni tendensiyaların araşdırılması əsas tədqiqat istiqamətlərini müəyyən edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi internet mühitində yaranan xalq deyimləri, folklor mahiyyətli mətnlərin araşdırılmasıdır. Dissertasiyada qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– İnternet mühitində mövcud olan folklorun nəzəri-metodoloji xüsusiyyətlərini araşdırmaq;

– Virtual mühitdə formalaşan xalq deyimlərinin semantik xüsusiyyətlərini təhlil edərək, klassik folklordan fərqlənən cəhətlərini müəyyənləşdirmək;

---

51; Bayat, F. XXI yüzilin sosial-iqtisadi və mədəniyyət ekologiyası paradiqmasında folklor // – Bakı: Dədə Qorqud, – 2004. № 4, – s. 56–64; Bayat, F. İnternet mühitində folklorun dəyişim və dönüşümü // – Bakı: Folklorşünaslıq, – 2018. №.2 (4), – s.8–19.

[10] Quliyev, H. Virtual mühitdə Folklor: ənənə və kommunikasiya / – Bakı: Sabah, – 2018. – 253 s; Quliyev, H. İnternet folklorunda anonimlik problemi // – Bakı: Dədə Qorqud, – 2019. № II, – s. 81–93; Quliyev, H. Virtual kommunikasiya mühitində folklor prosesləri və Albert Eynşteyn obrazı // – Bakı: Dədə Qorqud, – 2017/1, – s. 99–116; Quliyev, H. Virtual kommunikativ mühitdə folklor, şifahilik məsələsi // –Bakı: Gənc tədqiqatçı, – 2018. – c. IV, № 2, –s. 151–157; Quliyev, H. Virtual mühitdə Folklor: ənənə və kommunikasiya /– Bakı: Sabah, – 2018. – 253 s.

– İnternet mühitində yer alan xalq deyimlərinin təcəssüm olunma vasitələri və təzahür olunma formalarını müəyyənləşdirmək;

– Klassik folklordan internetə sirayət edən xalq deyimlərinin milli–mənəvi dəyərlərin, ənənələrin təsvir və təqdimində nail olunan başlıca məziyyətlərini müəyyənləşdirmək;

– Virtual folklorda xalq deyimlərinin transformasiya istiqamətləri və yayılma formasını müəyyənləşdirmək, hər iki folklorda mövcud olan nümunələrin müqayisəli təhlilini aparmaq və ekvivalenti ilə birgə araşdırmaq;

– İnternet mühitində formalaşan xalq deyimlərində yeni çaların və fərqli istiqamətlərin əhəmiyyətini aydınlaşdırmaq və bu nümunələrin ədəbi-bədii düşüncəyə gətirdiyi üslubi özünəməxsusluğu təhlil etmək.

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji istiqaməti, klassik və internet folkloru arasındakı əlaqələrin və xüsusiyyətlərin təhlilinə dair nəzəri konsepsiyalar və tədqiqatçıların qənaətləri əsasında qurulmuşdur. İnternet folkloru və informasiya-kommunikasiya texnologiyalarının geniş yayılması fonunda, xalq deyimlərinin yeni mühitə transformasiya olunması məsələlərini izah etməyə yönəlmiş tədqiqatlar bu işin əsas tədqiqat çərçivəsini təşkil edir. Bu dissertasiyada əsasən müqayisəli və sistemli təhlil metodlarından istifadə edilmişdir. Müqayisəli araşdırma, həmçinin internet folkloru və klassik folklor arasında mövcud fərqləri və ya inkişafı müəyyənləşdirməyə imkan verərək, daha detallı amilləri araşdırmağa və ortaq xüsusiyyətlərin inkişafını görməyə şərait yaratmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar**: Dissertasiya işində, elektron informasiya mədəniyyəti kontekstində xalq deyimlərinin araşdırılması ilə bağlı müdafiəyə çıxarılmış əsas müddəalar aşağıdakılardır:

1. Virtual folklorun araşdırılması tarixinin öyrənilməsi;
2. İnternet mühitində yaranan xalq deyimlərinin təzahür formalarının araşdırılması və təcəssüm olunma vasitələrinin müəyyənləşdirilməsi;

3. Virtual folklorda yaranan xalq deyimlərinin funksional semantik analizinin aparılması, təsnifat qruplarının müəyyənləşdirilməsi;

4. İnternet mühitində formalaşan xalq deyimlərinin mövzu və məzmun xüsusiyyətləri ilə bağlı araşdırmanın aparılması.

**Tədqiqatın elmi yeniliyi.** Elektron mühitdə xalq deyimlərinin araşdırılması bir sıra elmi yeniliklərin aşkarlanmasına şərait yaratmışdır. Dissertasiya işinin əsas yeniliyi ilk növbədə mövzunun orijinallığı ilə müəyyənləşir. Belə ki, dissertasiya Azərbaycan folklorşünaslığında müasir folklor mətnləri kimi xalq deyimlərinin internet mühitində araşdırılmasına həsr edilmiş ilk sistemli tədqiqat işidir. Problemin orijinallığı onun nəticələrinin də yeniliyini şərtləndirmişdir. Bu cəhətdən tədqiqatda problemin həlli ilə bağlı bir çox yeni nəticələr əldə edilmişdir. İnternet mühitində formalaşan, yaranan müasir xalq deyimlərinin məzmun və forması, təzahür və təcəssüm olunma vasitələri, semantik xüsusiyyətləri ilə bağlı aparılmış bu dissertasiyanın elmi yenilikləri aşağıdakı şəkildə xülasə edilə bilər:

– İnternet mühitində olan xalq deyimləri ilk dəfə sistemli şəkildə öyrənilmiş və klassik folklor nümunələri ilə müqayisəli formada oxşar və fərqli cəhətləri müəyyən edilmişdir;

– İnternet mühitində xalq deyimləri ilk dəfə olaraq müəyyən formada təsnifat edilib sistemləşdirilərək ətraflı təhlil edilmişdir;

– Xalq deyimləri elektron informasiya mədəniyyəti kontekstində ilk dəfə geniş təhlil edilərək aşkar edilmişdir;

– İnternet folklorunda formalaşan xalq deyimlərinin nəzəri-metodoloji təsnifatı müəyyənləşdirilmiş və ilk dəfə müasir problemlər xalq deyimləri nümunələri əsasında izah edilmişdir;

– Elektron mühitdə gender məsələləri araşdırılmış, genderə münasibət faktorları ilə bağlı baş verən dəyişikliklər ortalığa çıxarılmışdır;

– İnternet mühitinə transformasiya olunan deyimlərin hansı dəyişikliklə təcəssüm və təzahür olunması, forma və məzmun məsələləri ətraflı şərh olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində bir çox ədəbiyyatla bağlı mənbə və mövzular, həmçinin internet mühitində mövcud olan folklor nümunələri nəzərdən keçirilmişdir. Mövzunun tədqiqatı zamanı əldə edilən yeniliklər və qənaətlər dissertasiyanın nəzəri bazasını təmin etmişdir.

Tədqiqat işi müasir folklorun öyrənilməsində, Azərbaycan folklorşünaslığında virtual folklor tarixinin araşdırılmasında faydalı ola bilər. Tədqiqat zamanı əldə edilmiş qənaətlər universitetlərdə, xüsusilə ali təhsil müəssisələrinin Filologiya fakültələrində, həmçinin müasir folklor və virtual folklor fənlərinin tədrisi prosesində dərs vəsaiti kimi istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Araşdırmanın məzmunu Azərbaycanın və müxtəlif xarici ölkələrin elmi toplu və jurnallarında dərc olunmuş tezis, məqalə və konfrans məruzələrində əksini tapmışdır.

Dissertasiyanın mövzusu Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu Elmi Şurasının 09 aprel 2018-ci il tarixli (protokol №2) və Humanitar Elmləri üzrə Problem Şuranın 29 sentyabr tarixli (protokol №2) iclas protokollarının qərarı ilə təsdiq edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Müasir Folklor şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və ümumi həcmi.** Dissertasiya işi Giriş (11730 işarə), I fəsil (54961 işarə), II fəsil (152535 işarə), III fəsil (55510 işarə], Nəticə (8282 işarə) və ədəbiyyat siyahısından ibarət olan ümumi həcmi 348939 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "Giriş" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları müəyyən edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar qeyd edilmiş, tədqiqat işinin elmi-nəzəri və praktik əhəmiyyəti, elmi yeniliyi aydınlaşdırılmışdır.

Tədqiqatın **"Virtual folklorun öyrənilmə tarixi"** adlanan birinci fəslində problemin elmi-nəzəri əsasları müəyyənləşdirilmişdir. Bu fəsildə virtual folklor, müasir folklorşünaslıq elminin qarşısında duran prioriret məsələlər haqqında ümumi məlumat təqdim edilmişdir. Belə ki, Müasir folklorşünaslıq elminin qarşısında duran prioritet məsələlərdən biri də virtual folklorun araşdırılması, yaranma zəmini, özünəməxsus cəhətləri, mahiyyəti, informasiya kommunikasiya texnologiyalarının inkişafı istiqamətində virtual folklorda baş verən dəyişikliklər, ənənəvi folklordan internet mühitinə transformasiya olunan janrların forma və məzmun baxımından hansı dəyişikliyə uğramasını müəyyənləşdirmək və həmçinin təcəssüm və təzahür olunma xüsusiyyətləri baxımından internet folklorunun səciyyələndirilməsidir.

Bu fəslin ***"Virtual folklor: mahiyyəti və əsas xüsusiyyətləri"*** adlanan birinci paraqrafında[11] aparılmış tədqiqatın nəticələrinə görə, informasiya kommunikasiya texnologiyalarının sürətli inkişafı virtual folklorun daha da geniş aspektdə öyrənilməsinə və araşdırılmasına təkan vermişdir. Virtual folklor internet üzərində qurulduğu üçün bu iki faktoru qarşılıqlı şəkildə təhlil edərək, internet mühiti və burada cərəyan edən folklor prosesləri, eyni zamanda virtual folklorun sistemli araşdırılması və analizi əsasında internet mühitində hansı tendensiyaların yaranması, mövcud vəziyyət, dəyişikliklər və ya hansı ənənə və davranışların davam etməsi müəyyənləşdirilmişdir. Elektron informasiya mədəniyyəti konteksti anlayışı adı altında virtual folklor, internet mühiti, elektron mühit, elektron mədəniyyət və internet mühitində mövcud olan folklor və onun mahiyyətinin öyrənilməsi əsas götürülmüşdür. Virtual folklor, onun mahiyyəti və xüsusiyyətləri haqqında müəyyən fikirləri əsaslandırmaq üçün XX yüzildə baş verən hadisələr analiz edilmişdir. XX yüzilin ikinci yarısı bütün sferalarda baş verən böyük dəyişikliklər inkişaf strategiyası ilə

---

[11] **Paraqrafda əldə olunmuş nəticələr haqqında bax:** Həsənova, G.M. Ənənəvi folklordan virtual folklora keçid mərhələsində prinsiplər və atalar sözlərində bu prinsiplərin təzahürü// – Bakı: Nizami Adına Ədəbiyyat İnstitutu Filologiya məsələləri, – 2019. –No.16, –s.310–316.

səciyyələnmişdir. Çünki iqtisadi, sosial sferada baş verən inkişaf mədəni sahədən də yan keçməmişdir. Hər bir iqtisadi, mədəni sahədə baş verən inkişaf dinamikasının izlərini folklorda tapmaq mümkündür. Hətta inteqrasiyanın mümkünlüyü sayəsində folklorun öyrənilməsi istiqamətində, Amerika və Avropa folklorşünaslığının metodologiyasını öz folklorumuzda tətbiq etməklə folklorun müqayisəli yanaşma metodu ilə araşdırılması mümkün olmuşdur. Elektron mühitin verdiyi imkanlar folklorun quruluş mexanizminin zənginləşməsinə səbəb olmuşdur.

Folklor, xalqın ruhundan süzülən mədəniyyət olaraq, daim zamanın tələblərinə uyğun formalaşmışdır. Ənənəvi və virtual folklor arasında həm oxşar, həm də bir-birindən fərqlənən özünəməxsus xüsusiyyətlər mövcuddur. Hər iki folklorun hədəfi, xalqın təfəkkür prizması çərçivəsində təşəkkül tapması ilə xarakterizə olunur və onların əsas amalında xalqın fikir və düşüncələrinin, həmçinin dünyagörüşü spesifikasının dayanması özünü göstərir.

Klassik folklorun ənənəvilik, anonimlik, kollektivçilik, variantlılıq və xəlqilik kimi xüsusiyyətləri virtual folklora da sirayət etmiş və özünəməxsus çalarda rəngarənglik qazanmışdır. Bu folklorun təcəssüm olunma vasitələri müasir texnoloji tələblərə uyğunlaşsa da, ənənəvi əsaslar üzərində formalaşır. Bu gün internet resurslarında yaranan folklor, müxtəlif şəkildə ənənəvi formul və vasitələrdən istifadə edilməklə, klassik folklorun qəlibləri üzərində formalaşır. Forma və məzmun dəyişikliyinə uğrayan folklor nümunələrini dərindən analiz etdikdə isə onların kökündə hansı ənənəvi qəliblərin dayandığını görmək mümkündür.

Virtual folklor da anonimdir. Şifahi xalq yaradıcılığına məxsus olan folklor nümunələrinin ilk dəfə kim tərəfindən yaradıldığı bəlli olmadığı halda, bu nümunələr ağızdan-ağıza ötürülərək yayılır. Eynilə, virtual folklor nümunələrinin də kim tərəfindən yaradıldığı məlum deyil. İnternet resurslarında yaradılan folklor nümunələri, elektron poçt və sosial şəbəkələr vasitəsilə ötürülür və ümumilikdə onların kim tərəfindən yaradılması əhəmiyyət daşımır.

Hikmət Quliyevin fikirlərinə görə, folklor hələ kompüter yaranmamışdan öncə də var idi və bu mövcudluq üz-üzə ünsiyyət

formasında ötürülürdü. Müəllif folklorun əvvəlki dövrlərdən fərqli formada meydana gəldiyini texnoloji mühitin verdiyi imkanla əlaqələndirmişdir[12].

Mehmet Emin Bars qeyd edir ki, *"Ənənəvi cəmiyyətlərin yerini artıq sənaye və texnologiya cəmiyyətləri tutur"*[13]. Müəllifin fikirlərində həmçinin virtual mühitdə yaranan yaradıcılığın daima inkişaf prosesində olması, həmçinin mövzu baxımından təkmilləşməsi də vurğulanmışdır. Bu fikirlər virtual folklorun şəhər ya kənd arealından çıxmasını təsdiq edir.

Folklorun zənginliyi və internet mühitindəki dinamik inkişafı, internetin sürəti və istifadəçilərin yaradıcılıq qabiliyyətləri ilə birləşərək, folklorun daha sürətlə yayılmasına səbəb olmuşdur. XXI əsrdə baş verən hadisələrin folklora təsir mexanizmi barədə İlker Özdemirin[14] fikirlərinə görə, kütləvi informasiya çağındakı kimi xalq yaradıcılığı heç bir vaxt ümumi xarakter daşımamışdır. XXI əsrin zəngin bir dövr olması, xüsusilə dünya birliyi ilə inteqrasiya, milli inkişaf strategiyasının gücləndirilməsi və sürətli inkişaf dinamikası, əldə edilən uğurların hər biri mədəniyyətin sosial dəyişikliklərlə paralel olaraq yenilənməsinə dəstək olan amillərdəndir. Bütün bu amillərin folklora təsiri, onun bir parçası kimi çıxış etməsi isə təbii proses kimi qəbul edilməlidir.

Ahmet Özgür Güvencin fikirlərinə görə, hər bir məsələnin elektronlaşdırılması və elektron olduğunun isbatlanması sözlərin əvvəlinə e hərfi yazmaqla formalaşır. Gündən-günə inkişaf dinamikasının artması çərçivəsində bütün proseslərin də elektronlaşdırılması əlçatanlığa yönəlmiş bir addım olaraq qiymətləndirilməlidir. Folklorun elektronlaşdırılması, mədəni irsimizin, folklor nümunələrimizin internet mühitinə transformasiya

---

[12] Xavəri, S. Folklorun funksional strukturunun multidissiplinar analizi / S.Xavəri, H. Quliyev, S.Qarayev – Bakı: Elm və təhsil, – 2016, – 496 s.

[13] Bars, M.E. İnternet folkloru: Netlore // Uluslararası Dil, edebiyyat ve halkbilimi araştırmaları dergisi, – 2018. – s. 160–179.

[14] Özdemir, İ. Sanal kültür yanılsamamı, gerçeklikmi? // Folklor/edebiyyat, – 2012/4, 18 (71). – 13–34

olunması bu proseslərin davamı olaraq onun daha çox qorunmasına, mühafizə edilməsinə yönəlmiş bir addım kimi qiymətləndirilməlidir[15].

Alan Dundes, iyirmi birinci əsrdə folklorun daima yaşadığını və inkişaf etdiyini vurğulamışdır [16]. Bu fikrə əsaslanaraq deyə bilərik ki, bu gün folklor internetin yaratdığı imkanlar sayəsində daha da geniş yayılma vüsəti qazanmışdır. Sosial və mədəni həyatda baş verən hadisələr virtual folklorun məzmununun rəngarəng və dinamik olmasına şərait yaradır.

Birinci fəslin ***"Müasir folklor paradiqmasında virtual folklorun araşdırılma tarixi"*** adlanan ikinci paraqrafında[17], virtual folklorun tarixi araşdırılmış və bununla bağlı Avropa, Amerika, Rusiya, Türkiyə və Azərbaycan folklorşünaslığında nəzəri baxışlara diqqət yetirilmişdir. Tədqiqatda, folklorun əvvəlcə kiçik mühitdə yaranıb, sonra kompüter və internetin inkişafı ilə qlobal səviyyəyə qədər yüksəlməsi xronoloji ardıcıllıqla izah olunmuşdur. Sənaye istehsalının inkişafı ilə cəmiyyətin müxtəlif sferalarında baş verən müsbət dəyişikliklər, o cümlədən folklorun məzmununun inkişafına təsir etdiyi vurğulanmışdır.

Sergey Neklyudovun fikirlərinə görə, *"Müasir şəhər folkloruna həm müasir şəhər həyatına uyğunlaşdırılmış ənənəvi folklor janrları, həm də iki formada (şifahi və yazılı) yayılmış şəhər mətnləri daxildir"*[18]. Füzuli Bayatın fikirlərinə görə, şəhər həyatı və

---

[15] Güvenc, A.Ö. İnternet folkloru üzerinə önerilem bir termin: e–folklor // Atatürk Universitesi Sosyal Bilimler Enistitüsü Dergisi, – 2014, №18. – s. 31–46

[16] Dundes, A. Folkloristics in the Tventy First Century (AFS İnvited Presidential Plenary Adress, 2004) // The Journal of American Folklore, – 2005, Vol 118, N 470. – p.385–408.

[17] **Paraqrafda əldə olunmuş nəticələr haqqında bax:** Həsənova, G.M. Müasir folklor paradiqmasında virtual folklorun araşdırılması tarixi // – Bakı: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (folklorşünaslıq ixtisası üzrə) AMEA Folklor İnstitutu, – 2019. –No.2, – C.55, –s. 65–74. Гасанова, Г.М. Виртуальный фольклор в социально–культурной среде // – Ukraine: Закарпатские филологические студии, – 2021. –№.14, – с. 263–268.

[18] Неклюдов С.Ю. Фольклор современного города // CD Научно–методологический семинарий «Фольклор и фольклористика: современная

sənaye ilə bağlı inkişafın folklora təsir etməsində rolu vardır. Müəllif bu təsirin rolunu yeniliklərlə meydana gələn yeni mövzularla, həmçinin müasir formalarla əlaqələndirmişdir[19].

Hikmət Quliyev qeyd edir ki, *"İnformasiya kommunikasiya texnologiyalarının inkişafı insan həyatının, məişətinin ən müxtəlif maraq və ehtiyaclarının daha sürətli və asan, həmçinin keyfiyyətli şəkildə təmin olunmasına gətirib çıxarmışdır"*[20]. Telefon, rabitə və xüsusilə internetin yaranması ilə insanlar arasında kommunikasiya vasitələri zənginləşmişdir. Əvvəlcə üz-üzə ünsiyyətin funksiyaları indi internet vasitəsilə həyata keçirilməyə başlanmışdır. Hikmət Quliyevin araşdırmalarında kommunikasiya və folklor, rəqəmsal kommunikasiya vasitələrində folklorik modellər, virtual mühitdə folklorlaşma, internet folklorunun semantik analizi, Azərbaycandilli virtual məkandakı folklor dinamikası kimi məsələlər müasir elmi yanaşmalarla öyrənilmişdir. Müəllifin ənənəvi folklordan virtual folklora transformasiya ilə bağlı apardığı tədqiqatlar, xüsusilə Azərbaycandilli virtual məkandakı folklor proseslərinin təhlilinə yönəlmişdir[21].

---

научная парадигма и образовательные технологии. Доклады. Хрестоматия по фольклористике. Звуковая хрестоматия». СПб.: Пропповский центр СПбГУ; Институт истории искусств, 2003; Неклюдов С.Ю. Фольклор и современность: итоги XX века // От конгресса к конгрессу. Навстречу Второму Всероссийскому конгрессу фольклористов. Сборник материалов. М.: ГРЦРФ, 2010. с. 30–42.

[19] Bayat, F. Folklordan postfolklora, Folklorşünaslıq: problemlər, tədqiqlər // – Bakı: Dədə Qorqud, – 2018. № 2, – s. 39–51.

[20] Quliyev, H. Virtual mühitdə Folklor: ənənə və kommunikasiya / H.Quliyev. – Bakı: Sabah, – 2018. – 253 s; Quliyev, H. İnternet folklorunda anonimlik problemi // – Bakı: Dədə Qorqud, – 2019. № II, – s. 81–93; Quliyev, H. Virtual kommunikasiya mühitində folklor prosesləri və Albert Eynşteyn obrazı // – Bakı: Dədə Qorqud, – 2017/1, – s. 99–116.

[21] Quliyev, H. Virtual kommunikativ mühitdə folklor, şifahilik məsələsi // – Bakı: Gənc tədqiqatçı, – 2018. – c. IV, № 2, –s. 151–157; Quliyev, H. Folklor informasiya təhlükəsizliyində və informasiya təhlükəsizliyi folklorda // – Bakı: İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi–praktiki problemləri IV respublika konfransı – 2018, – s. 95–100.

Virtual folklorun araşdırılması istiqamətində tədqiqat aparan Vera Rukomoynikova[22], Vadim Rozin[23], Riçard Dorson[24], Trevor Blank[25], Howard Glenn[26], Mak Neyl[27], Dan Ben Amos[28], Barbara Kirşenblatt Gimblett[29], Mariann Domokos[30] və digər tədqiqatçıların folklor, internet mühiti, virtual mühit, virtual folklor və onun xüsusiyyətləri barədə təhlil aparmışdır. Müvafiq tədqiqatçılar tərəfindən texnologiyalar, xüsusilə kompüter ilə bağlı yaranan yeni mətnlərin internetdə yerləşdirilməsi məsələsinə toxunulmuşdur. Bu vəziyyət müasir həyatın təbii nəticəsi kimi qiymətləndirilməlidir. Gündəlik yaşamın ayrılmaz hissəsinə çevrilmiş telefon, mobil qurğular və internet şəbəkələri yaşanılan hadisələrin rəqəmsal mühitə ötürülməsini zəruri edir. Virtual folklorun tədqiqi isə müasir folklor paradiqmasında birbaşa informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə əlaqəlidir.

Problemin tədqiqi göstərir ki, virtual folklorun araşdırılması yeni anlayış və terminlərin formalaşmasına səbəb olmuşdur. Müasir dövrün xüsusiyyətlərini təhlil edən tədqiqatçılar virtual aləmdə mövcud olan anlayışları yenidən şərh etmək və elmi baxımdan

---

22 Рукомойникова, В.П. Виртуальный фольклор: за ипротив. Монография. / В.П.Рукомойникова. –Йошкар–ола. – 2004. – 128 с.

23 Розин, В.М. Феномен сетевого фольклора // Традиционнаякультура. – 2007. № 3. – с. 15–22.

24 Dorson, Richard M. Folklore and folklofe: an introduction. Edited by Richard M.Dorson. The University of Chicago press. 1972. 527 p.

25 Trevor, J.B. Toward a Conseptual Framework for the Study of Folklore and the Internet. Folklore and the Internet: Vernacular Expression in a Digital World // – Logan, Utah: Utah State University Press. – 2009. – p.1–20.

26 Howard, R.G. The Vernacular Web of Participatory Media // Critical Studies in Media Communication, vol. 25, – 2008b, №5, – p. 490–513

27 McNeill, Lynne S. The internet is weird: Folkloristics in the digital age. // Folklore Fellows Network. – 2015. № 47. – p.12–13.

28 Ben–Amos, Dan.Toward ad Definition of Folklore in Context // Journal of American Folklore 84: – p. 3–15.

29 Kirshenblatt Gimblett, Barbara Folklores Crisis, Journal of American Folklore 111, 281–327, 1998.

30 Domokos, M. Folklore and mobile communication // Fabula 48, – 2007, heft 1/2, – p.50–59.

dəyərləndirmək zərurəti ilə qarşılaşmışlar. Elektron informasiya kontekstində "virtual folklor", "internet folkloru", "şəbəkə folkloru", "e-folklor", "netlore", "netnoqrafiya", "newslore" kimi terminlər işlədilir. Bu anlayışların hər biri folklor və internet arasında qurulan yeni münasibətlərin elmi əsaslandırılmasına xidmət edir. Robert Kozinets[31], Kaan Varnalı[32], Russell Frank[33] və digər tədqiqatçıların apardığı araşdırmalarında bu anlayışlar xalqa, topluma bağlı olaraq onların istək və arzularını, düşüncülərini əks etdirməyə yönəlmişdir.

Tədqiqatın **"Virtual xalq deyimlərinin funksional semantikası"** adlanan ikinci fəslində internet mühitində formalaşan xalq deyimləri və folklor mətnlərinin funksional təzahür formaları təhlil edilmişdir. Araşdırmalar göstərir ki, informasiya-kommunikasiya texnologiyalarının inkişafı virtual folklorun struktur və məzmununda əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklərə virtual mühitin dinamikası, istifadəçilərin yaradıcılıq performansı və informasiya cəmiyyətində baş verən sosial-mədəni proseslər təsir göstərmişdir. Müəyyən edilmişdir ki, virtual folklor ənənəvi folklorun zəminində formalaşmaqla yanaşı, onu yenidən şərh edir və daha müasir məzmunla zənginləşdirir. Klassik və virtual folklor nümunələrinin təqdimat formasından asılı olmayaraq, onların hər biri milli dəyərləri, folklorik ruhu və xalq düşüncəsini əks etdirməlidir. Xalqın mənəvi dünyasını ifadə etməyən heç bir mətn folklor nümunəsi sayıla bilməz.

İkinci fəslin ***"Sosial mediada xalq deyimlərinin təzahür formaları"*** adlı birinci paraqrafında[34] müəyyən edilmişdir ki, virtual

---

[31] Kozinets, R.V. On Netnography: Initial Reflections on Consumer Research Investigations of Cyberculture // Advances in Consumer Research Volume 25, eds. Joseph W. Alba & J. Wesley Hutchinson, Provo, UT: Association for Consumer Research, – 1998. – p. 366–371.

[32] Varnalı, K. Dijital Kabilelerin izinde sosyal medyada netrografik araştırmalar / K.Varnalı. – İstanbul, Mediacat Yayıncılık – Medya Dizisi, – 2013. – 288 s.

[33] Russell, F. Newslore: Contemporary Folklore on the internet / F.Russell, Jackson University of Missisipi, – 2011. – 268 p.

[34] **Paraqrafda əldə olunmuş nəticələr haqqında bax:** Həsənova, G.M. İnternet resurslarında folklorun təcəssüm olunma vasitələri // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, – 2020. – Cild 11, – № 2. – s. 20–25.

məkanda xalq deyimləri müxtəlif formalarda mövcuddur və bu rəngarənglik ənənəvi folklordan süzülərək müasir mühitdə yeni formalarda təzahür edir. Əgər klassik folklorda mətnlər söz, səs və hərəkət vasitəsilə təqdim olunurdusa, virtual folklorda yazı, şəkil, animasiya, video, illüstrasiya və fotomontaj kimi müxtəlif vizual və rəqəmsal vasitələrlə gerçəkləşir. Bu formalarda belə, xalq yaradıcılığına məxsus olan əsas xüsusiyyətlərin qorunduğu müşahidə edilir.

Virtual folklorun sosial şəbəkələrdə yayılmasında Facebook, Instagram, Twitter, TikTok, WhatsApp kimi platformaların rolu böyükdür. Bu platformalarda "Albertəmi", "Atalar_yaxşı_deyib_2", "Mırt dahilər", "Müasir atalar sözləri" kimi səhifələrdə yayımlanan mətnlər xalq deyimlərinin müasir formalarının geniş auditoriyaya çatdırılmasına xidmət edir[35].

Mətnin strukturunun rəqəmsal və ya qrafik formada təqdim olunması onun folklor mahiyyətinə təsir göstərmir. Əksinə, bu formalarda da kollektiv yaddaşı əks etdirən, anonimlik və variantlılıq daşıyan məzmunlar mövcuddur. Müəyyən istifadəçilər tərəfindən yaradılan və paylaşılmasına baxmayaraq, bu nümunələrin müəllifinin tanınmaması onların folklorla bağlılığını daha da gücləndirir. Folklorun vizual və rəqəmsal transformasiyası onun yenidən yaradılma və dəyişmə qabiliyyətini bir daha təsdiqləyir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, ənənəvi qəlib üzərində formalaşan deyimlər internet mühitində yeni məzmun və semantik çalarlar qazanaraq aktuallaşmışdır. Formal və struktur baxımından sabitlik qorunsa da, məzmun müasir dövrün sosial-siyasi reallıqları ilə zənginləşmişdir. Beləliklə, yeni yaradılan nümunələrdə

[35]Atalar_yaxşı_deyib_2 [Elektron resurs] / – fevral, 2016. URLhttps://www.instagram.com/atalar_yaxsi_deyib_2?igsh=OWZrYnJkM2dxZ2Fz. Mamed dayının full lətifələri [Elektron resurs] / – Yanvar 2, 2013. URL:https://www.facebook.com/Mamedfullldu/posts/547107125301758/. Mirt dahiler [Elektron resurs] / – Sentyabr 2018. URL: https://www.instagram.com/mirt.dahiler__?igsh=MXRicGVqdzlvbjlkbw==. Müasir atalar sözləri / – İyul 12, 2012. URL: https://www.facebook.com/Gulmeli.Letifeler.Mekani/posts/203502569778431/

baxış bucağı dəyişsə də, onların mahiyyəti və funksiyası ənənəvi folklor nümunələri ilə eynidir.

İnternet folklorunda yaranan bu tip deyimlər konkret zaman və kontekstə bağlı olaraq meydana çıxır və onların semantikası cəmiyyətin ictimai proseslərinə reaksiya verir. Məsələn, COVID-19 pandemiyası dövründə yaranan deyimlər bu hadisəyə ictimai münasibətin və kollektiv təcrübənin folklorik təzahürü kimi çıxış etmiş, lakin virusun aktuallığını itirməsi ilə bu nümunələrin yayılma tezliyi də azalmışdır.

Alan Dundes[36] və Mehmet Emin Barsın[37] da fikirlərinə əsasən, folklor nümunələri virtual məkanda yenilənərək yeni kontekstə uyğun semantik çalarlar qazanır. İnternet mühitində formalaşan folklor məhsulları həm məkanın xəyali xüsusiyyətləri ilə zənginləşir, həm də ənənəvi folklorun dərin köklərinə istinad edir. Ənənəvi və virtual folklor nümunələri arasındakı əsas fərq məzmunun dəyişkənliyində özünü göstərir. Necə ki, rəvayətçi şifahi təqdimatda mətni dəyişə bilər, eyni şəkildə internetdə yayılan folklor nümunələri də zamanla transformasiyaya uğrayaraq fərqli formalar ala bilər.

Selcan Gürçayır[38] şifahi söz sənətinin qədim forması olan atalar sözlərinin transformasiya yolu ilə elektron mühitdə yenidən yaranmasını vurğulayır. Onun fikrincə, internet folkloru istər ənənəvi strukturlar, istərsə də özünəməxsus jarqon vasitəsilə formalaşaraq, rəqəmsal platformalarda yayılır və bu yolla milli dəyərlərin nəsildən-nəslə ötürülməsində mühüm rol oynayır. Kompüter texnologiyaları və internetin geniş yayılması isə müasir folklorun tədqiqində əhəmiyyətli imkanlar yaratmışdır.

---

[36]Dundes, A. Doku, Metin və Konteks (çev: Metin Ekici)// Milli Folklor, – 2003, S:38, – s 106–119; Dundes, A. Folkloristics in the Tventy First Century (AFS İnvited Presidential Plenary Adress, 2004) // The Journal of Amican Folklore, – 2005, Vol 118, N 470. – p.385–408; Dundes, A. Interpreting Folklore / A. Dundes – Bloomington: Indiana University Press, –1980, – 320 p;

[37]Bars, M.E. İnternet folkloru: Netlore // Uluslararası Dil, edebiyyat ve halkbilimi araştırmaları dergisi, – 2018. – s. 160–179;.

[38] Gürçayır, S. Kuşaktan foruma geçiş ve bilgisayar atasözleri // – Milli Folklor, – 2008, №79, – s. 70–77.

Tədqiqatın ikinci fəslinin ***"İnternet mühitində xalq deyimlərinin yayılması və ötürülmə mexanizmi"*** adlanan ikinci paraqrafında[39] müəyyənləşdirilmişdir ki, virtual folklorun mövcudluğu və funksionallığı birbaşa internet mühiti ilə bağlıdır. Hazırda bu tip folklor nümunələrinin daha çox sosial şəbəkələr (Facebook, Instagram, Twitter, WhatsApp və s.), bloq və forumlar vasitəsilə yayılması müşahidə olunur. Virtual folklor nümunələri konkret istifadəçilər tərəfindən yaradılır və texnoloji imkanlar sayəsində sürətlə yayılır. Bu prosesdə İKT yalnız texniki vasitə deyil, həm də mədəni fenomen kimi çıxış edir. Klassik folklordan fərqli olaraq, internet folkloru yaranma, yayılma və funksional transformasiya baxımından fərqli xüsusiyyətlərə malikdir. Cəmiyyətin ictimai-siyasi və mədəni prosesləri sosial şəbəkələrdə əks olunaraq, yeni folklor nümunələrinin formalaşmasına səbəb olur.

Simon Bronnerin[40] fikirlərinə görə, internetin kommunikasiya aləti kimi rolunu nəzərə alaraq, bu mühitin münasibətlərin yaranması və dərinləşməsində mühüm təsiri vardır. İnternetin auditoriyası və mühiti, prosesin sürətinə və yayılma formasına təsir edir. Ənənəvi folklor nümunələrinin ağızdan-ağıza ötürülməsindən fərqli olaraq, virtual folklor İKT-nin verdiyi imkanlarla, məsələn, e-mail, mobil tətbiqlər və sosial şəbəkələr vasitəsilə daha sürətli və geniş kütləyə yayıla bilir. Çağdaş dövrün tələblərinə uyğun olaraq formalaşan virtual folklor, özünəməxsus xüsusiyyətlərə malikdir. Sosial şəbəkələrin böyük istifadəçi bazası və mətnlərin daha rəngarəng təqdim olunma imkanı, virtual folklorun daha aktiv şəkildə yayılmasına imkan yaradır.

---

[39] **Paraqrafda əldə olunmuş nəticələr haqqında bax:** Həsənova, G.M. İnternet resurslarında xalq deyimlərinin yayılma və ötürülməsi // – Bakı: Azərbaycan Mühəndislər Universiteti Gənc Tədqiqatçıların IV Beynəlxalq elmi konfransı, – 2020. –No.4, –s. 75–78.

[40] Bronner, Simon J. Digitizing and Virtualizing Folklore. Folklore and the İnternet // Utah State University Press, Logan, Utah, – 2009, – p. 21–66.

Tədqiqatın ikinci fəslinin ***"Xalq deyimlərinin funksional təsnifi"*** adlanan üçüncü paraqrafında[41] qeyd edilir ki, həm ənənəvi, həm də virtual folklorda deyimlərin funksiyası onların mahiyyətinə və cəmiyyətə təsirinə görə fərqləndirilir. Xalq deyimləri, insanların hadisələrə və məsələlərə münasibətini müxtəlif yollarla ifadə etmək məqsədini güdür. Bu yarımfəsildə, internet mühitində yaranan deyimlərin özünəməxsus xüsusiyyətləri və funksional aspektləri təhlil edilmiş və onların virtual mühitdə necə təsir göstərdiyi vurğulanmışdır.

Tədqiqatın ikinci fəslinin ***"Xalq deyimlərində mənəvi-əxlaqi keyfiyyətlər"*** adlı dördüncü paraqrafında, etika anlayışının folklordakı təzahürləri və bunun internet mühitindəki əks-sədası araşdırılmışdır. Etika, əxlaq və mənəviyyatla bağlı qaydaların folklorda necə yer aldığı və bu qaydaların həm ənənəvi, həm də virtual folklorda necə təzahür etdiyi müəyyənləşdirilmişdir. İnternet mühitindəki deyimlərə dair təhlillər göstərir ki, folklorun funksional strukturunda estetik funksiyanın rolu, mənəvi-əxlaq normaları və etik prinsiplərlə birbaşa əlaqəlidir. Sərxan Xavərinin[42] fikrincə, folklordakı estetik funksiyanın kökündə cəmiyyətin aparıcı qüvvəsi olan insanların estetik dəyərləri dayanır. Müəllifin qeyd etdiyi kimi, folklorda estetik funksiya yazılı mədəniyyətdən fərqli olaraq kollektiv köklərə əsaslanır və dünya qavrayışı kollektiv yaddaşa bağlıdır. Virtual folklorda isə estetik funksiya da kollektiv yaddaşa dayanır və burada zövqlər, kollektiv maraqlar çərçivəsində

---

[41] **Paraqrafda əldə olunmuş nəticələr haqqında bax:** Həsənova, G.M. İnternet mühitində yaranan xalq deyimlərinin təsnifatı // – Bakı: 4th International Nowruz Conference On Scientific Research , – 2021. –s. 122–132. Həsənova, G.M. Elektron informasiya kontekstində birbaşa ismarıc (deyimlər fonunda) // – Bakı: İpək yolu Azərbaycan Universiteti, – 2021. –№.2, – s. 142–148. Həsənova, G.M. Elektron informasiya kontekstindəki xalq deyimlərində gülüşün mahiyyəti // – Bakı: Humanitar və İctimai Elmlər üzrə III Beynəlxalq Elmi Konfrans, – 2021. – s. 94–96. Həsənova, G.M. Elektron informasiya mədəniyyəti kontekstində təsvir mahiyyətli deyimlər // – Bakı: Sosial və Humanitar Elmlər sahəsində müasir tədqiqat üzrə Qarabağ Beynəlxalq Konfransı, – 2021. – s. 84–88.

[42] Xavəri, S. Folklorun funksional strukturunun multidissiplinar analizi / S.Xavəri, H. Quliyev, S.Qarayev – Bakı: Elm və təhsil, – 2016, – 496 s.

formalaşır. Hər bir folklor mətnini onun mahiyyətinə görə dəyərləndirən əsas amil isə o mətnin daşıdığı mənadır. İnternet mühitində hər bir istifadəçi tərəfindən yaradılan və paylaşılan nümunələrin virtual folklor kimi dəyərləndirilməsi, mətnin kütləvi şəkildə qəbul edilməsi ilə bağlıdır.

Tədqiqatın ikinci fəslinin ***"Xalq deyimlərində gender problemi: virtual ünsiyyətdə qadın və kişi münasibətləri"*** adlanan beşinci paraqrafında[43] gender məsələsinin folklorda fərqli bir mövqedə təqdim olunduğu vurğulanır. Araşdırmalar göstərir ki, qadına münasibət müxtəlif dövrlərdə dəyişmiş, xüsusilə qadının övlad dünyaya gətirməsi, böyütməsi və tərbiyəsi məsələlərində üzərinə daha çox vəzifə düşdüyü aydın olmuşdur. Qadın və kişilərin müəyyən kateqoriyalara təyin olunması və onların davranışlarının cinsiyyətə görə formalaşması folklorda geniş yer tutmuşdur. Hazırda qlobal səviyyədə cinsiyyət fərqlərinin aradan qaldırılması istiqamətində aparılan mübarizə önəmli məsələlərdən biridir. Təhlil göstərir ki, qadınların hüquqlarının pozulması və onlara bioloji varlıq kimi baxılması, həmçinin qadının əşya kimi dəyərləndirilməsi məsələləri folklorda və internet mühitində də öz əksini tapır. Misal olaraq, *"Arvadın sözünə qulaq as. Qulağında nauşniklə"* və ya *"Arvad evin dirəyidi. Küncdə"*[44] kimi müasir dövrdə yaranan internet nümunələrinin ənənəvi folklordakı ekvivalentinin müqayisəsi də göstərir ki, qadına olan dəyərsiz yanaşma yeni deyildir.

Tədqiqatın ***"Virtual xalq deyimlərinin mövzu-məzmun xüsusiyyətləri"*** adlı üçüncü fəslində müasir problemlərin elektron informasiya kontekstində işlənmə dərəcəsinə toxunulmuş və materiallar kollektivin zəngin yaradıcılıq məhsulu kimi dəyərləndirilmişdir. Müasir dövrümüzdə kütləvi informasiya vasitəsinin bir qolu kimi sosial medianın rolu, inkişafı və aktiv

---

[43] **Paraqrafda əldə olunmuş nəticələr haqqında bax:** Həsənova, G.M. İnternet folklorunda xalq deyimlərində gender məsələsinə bir nəzər // – Bakı: World Women Conference II, – 2021. – s. 168–169. Həsənova, G.M. İnternet mühitində ana deyimləri // –Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, – 2021. – Cild 12, – №2, – s. 55–59.

[44]https://www.facebook.com/Gulmeli.Letifeler.Mekani/posts/203502569778431/

şəkildə istifadəsi ilə əlaqədar ölkəmizdə və eləcə də dünyada gedən sosial, iqtisadi, mədəni həyatda baş verən hadisələrə kollektivin reaksiyasının təzahürü xüsusi şəkildə meydana çıxmışdır. Üçüncü fəslin ***"Virtual ünsiyyətdə yaranan deyimlər"*** adlı birinci paraqrafında[45] məlum olur ki, sosial şəbəkələr və elektron mühitlərdə keçirdiyimiz vaxtın artması nəticəsində yeni deyimlərin yaranması müşahidə edilir. Bu sahədə olan deyimlərin təhlili nəticəsində struktur cəhətdən meydana çıxan fərqli tərəfləri çözmək üçün nümunələr iki növ üzrə (məzmununda dəyişiklik olan və internet mühitində birbaşa meydana gələn) təsnif edilmişdir. Nümunə olaraq: *"Hər virus bir təcrübədir", "Antivirusu olmayan kompyuteri virus bağlayar", "Hər virusun bir yeyişi vardır", "Virus düşə-düşə yayılar", "Gözəlliyinə güvənmə, sızanaq alıb götürər, kompüterinə güvənmə virus alıb götürər", "İgidlərə adları qəhrəmanlıqdan qalsa da, viruslara adları verdiyi zərərdən sonra bilinər"*[46].

Üçüncü fəslin ***"Cari proseslərin xalq deyimlərində təcəssümü"*** adlı ikinci paraqrafında[47] cəmiyyətin həyatında baş verən hadisələr təhlil obyektinə çevrilmişdir. Azərbaycandilli virtual məkanda mövcud virusla bağlı, təcrid rejimi ilə bağlı internet resurslarında çoxlu sayda folklor nümunələri yaranmışdır. Analiz göstərir ki, bu folklorik ifadələr, təcrid rejiminin insanlar üzərindəki təsirlərinə, əhalinin məşğuliyyətinə və qaydalara riayət edilməsinə dair kollektiv reaksiyaları əks etdirir. Virusla bağlı yaranan qarğış və alqış ifadələri, ənənəvi folklorun formalarına uyğun olaraq meydana çıxmışdır. Bu, folklorun müasir problemlərlə necə əlaqələndirildiyini və onun yeni şəraitdə necə təzahür etdiyini göstərir.

---

[45] **Paraqrafda əldə olunmuş nəticələr haqqında bax:** Həsənova, G.M. Virtual folklorda internetlə bağlı yaranan atalar sözləri və deyimlər // – Bakı: Pedaqoji Universitetin Xəbərləri, Humanitar, ictimai və pedaqoji–psixoloji elmlər seriyası, – 2020. – Cild 68, – № 1, – s. 16–22.

[46] https://big.az/107160Kompyuter_haqqinda_deyilen_maraqli_sozler. html, Kompyuter haqqında deyilən maraqlı sözlər / – sentyabr 2012.

[47] **Paraqrafda əldə olunmuş nəticələr haqqında bax:** Həsənova, G.M. İnternet ortamında Covid–19 bağlı folklor nümunələri // – Bakı: Bakı Slavyan Universitetinin Elmi əsərləri, Dil və ədəbiyyat seriyası Bakı Slavyan Universiteti, – 2020. – № 1, – s. 142–150.

Üçüncü fəslin *"Sosial-iqtisadi məsələlərə münasibət"* adlı üçüncü paraqrafında[48] qeyd olunmuşdur ki, tarixi hadisələr cəmiyyətin müxtəlif sahələrinə təsir edir. İnternet mühitində sosial-iqtisadi məsələlərlə bağlı yaranan deyimlərin semantik və struktur analizi göstərir ki, bu deyimlər, əsasən, insanların yaşayış təminatı və həyat tərzi ilə bağlı istək və arzularını əks etdirir. Siyasi məsələlərlə əlaqəli deyimlərin təhlili isə bu nümunələrin məqsədinin sosial-siyasi çatışmazlıqları cəmiyyətə çatdırmaq olduğunu göstərir. Nümunələr, dövrün və konkret ictimai-siyasi vəziyyətin anlaşıla bilməsi üçün mühüm rol oynayır. Əlavə olaraq, belə özbaşınalıqlara qarşı mübarizənin təşviq edilməsi və siyasi mövqedən mübarizə tədbirlərinin görülməsi müsbət bir tendensiya kimi qeyd olunur.

Dissertasiya işinin "**Nəticə**" hissəsində tədqiqat zamanı mövzu üzrə aparılmış araşdırmaların gedişində əldə edilmiş nəticələri belə ümumiləşdirmək mümkündür:

Dünya folklorşünaslığında aparılmış araşdırmaların nəzəri prinsipləri azərbaycandilli virtual folklor nümunələrinə tətbiq edilərək, müqayisəli təhlil əsasında xalq deyimləri və folklor mətnləri araşdırılmış və bu mətlərin sosial-mədəni proseslərdə yeni məna qazandığı, həmçinin yeni məzmun kəsb etdiyi müəyyən edilmişdir. Yeni folklor nümunələrinin ənənəvi folklor nümunələrindən fərqli formalarda təzahür etməsi, onların mahiyyətindəki mənaya və çalara heç bir mənfi təsir göstərmir. Əksinə, bu nümunələr müasir dövrün ruhuna uyğunlaşaraq geniş kütləyə yayılma potensialına malik olur. Müasir dövrdə baş vermiş hadisələrə həsr edilmiş və həmin məsələləri açıq şəkildə ifadə edən deyimlərin təhlili göstərir ki, bu deyimlər, yaranma zamanından asılı olmayaraq, kollektiv düşüncə məhsulu olaraq qəbul edildiyi təqdirdə, folklor mahiyyətinə malik sayılır və zamanla işləklik qazanaraq cəmiyyətin yaddaşında yer tutmaqdadır.

---

[48] **Paraqrafda əldə olunmuş nəticələr haqqında bax:** Həsənova, G.M. Elektron informasiya kontekstində xalq deyimlərinin semantik özəllikləri // – Bakı: İpək yolu Azərbaycan Universiteti, – 2020. –№.2, –s. 122–130.

Virtual folklor resurslarının, materiallarının, bir sözlə tədqiqat obyekti olan xalq deyimlərinin etibarlı saxlanması, bütövlüyünün və tamlığının qorunması, həmin resursların əlçatanlığı müəyyən mənada təmin olunmuşdur. Klassik və virtual folklorun mühafizəsi məsələsi müqayisəli təhlil edildikdə aydın olur ki, müasir dövrdə virtual folklor nümunələrinin əldə olunması yalnız əlçatan deyil, eyni zamanda onların qorunması da daha etibarlı şəkildə həyata keçirilir. Artıq folklor materiallarını toplamaq üçün fiziki məkan dəyişməsinə və uzun məsafələrin qət olunmasına ehtiyac qalmamış, sosial şəbəkələrdə yaradılmış səhifələr və qruplar vasitəsilə internet mühitində formalaşan çoxsaylı nümunələrin izlənməsi və paylaşılması mümkün olmuşdur.

Virtual folklorun təzahür formaları informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə paralel şəkildə yeni məzmun və forma xüsusiyyətləri qazanmışdır. Əgər klassik folklor söz, səs və hərəkət vasitəsilə reallaşırdısa, müasir dövrdə texnoloji imkanlar sayəsində folklor nümunələri vizual (şəkil, foto), audiovizual (video, animasiya) və elektron mətn formatlarında təqdim edilməyə başlamışdır. Virtual məkanda formalaşan bu tip deyimlər cəmiyyətin aktual sosial-mədəni problemlərinə uyğun olaraq meydana çıxır və tez bir zamanda geniş auditoriya tərəfindən mənimsənilir. Animasiya şəklində təqdim olunan izahlı mətnlər, sosial şəbəkə qruplarında yayılan və kollektiv təfəkkürü əks etdirən videoçarxlar bu tip nümunələrin əsas formalarındandır. Bayram mövzulu roliklərin geniş şəkildə paylaşılması bu tendensiyanın tipik nümunəsi kimi qeyd oluna bilər.

Texnologiyanın inkişafı folklorun yalnız təzahür formasına deyil, onun yayılma və ötürülmə mexanizminə də təsir göstərmişdir. Sosial şəbəkələrdə yaradılan səhifələrin artması, paylaşımların sürətlə yayılması və yüksək interaktivlik göstəriciləri virtual folklorun geniş auditoriyaya çatdırılmasında mühüm rol oynayır. Beləliklə, virtual folklor nümunələri informasiya-kommunikasiya texnologiyalarının təsiri ilə həm forma, həm də məzmun baxımından transformasiyaya uğrayaraq çağdaş dövrün ictimai-mədəni reallıqlarına uyğun şəkildə inkişaf etməkdədir.

Beləliklə, internet folklorunun aktivliyini təmin edən əsas amillərdən biri kimi informasiya-kommunikasiya texnologiyaları kontekstində yaranan folklor nümunələrinin tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan kompüter, internet və digər texnoloji anlayışlarla bağlı meydana çıxan xalq deyimlərinin toplanması, eləcə də onların xüsusilə Türkiyə folklorundakı ekvivalentləri ilə müqayisəli təhlili bu sahədə atılan ilkin elmi addımlar kimi qiymətləndirilməlidir.

Aparılan araşdırmalar göstərir ki, virtual folklor geniş texnoloji imkanlara əsaslanan və sürətlə inkişaf edən bir sahə olmaqla, çağdaş dövrdə aktual sosial-mədəni prosesləri əks etdirməkdədir. Cəmiyyətdə baş verən sosial, iqtisadi və mədəni dəyişikliklər yeni məzmun və forma çalarlarına malik olan folklor nümunələrinin meydana çıxmasına, eləcə də onların virtual məkanda aktiv şəkildə yaşamasına və yayılmasına zəmin yaratmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1. Atalar sözləri, xalq deyimlərinin internet resurslarında təzahürü // – Bakı: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (folklorşünaslıq ixtisası üzrə) AMEA Folklor İnstitutu, – 2019. – №.1, – C. 54, – s. 143–150.

2. Müasir folklor paradiqmasında virtual folklorun araşdırılması tarixi // – Bakı: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (folklorşünaslıq ixtisası üzrə) AMEA Folklor İnstitutu, – 2019. –No.2, – C.55, –s. 65–74.

3. Ənənəvi folklordan virtual folklora keçid mərhələsində prinsiplər və atalar sözlərində bu prinsiplərin təzahürü// – Bakı: Nizami Adına Ədəbiyyat İnstitutu Filologiya məsələləri, – 2019. – No.16, –s.310–316.

4. Virtual folklorda internetlə bağlı yaranan atalar sözləri və deyimlər // – Bakı: Pedaqoji Universitetin Xəbərləri, Humanitar, ictimai və pedaqoji–psixoloji elmlər seriyası, – 2020. – Cild 68, – № 1, – s. 16–22.

5. İnternet resurslarında folklorun təcəssüm olunma vasitələri // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, – 2020. – Cild 11, – № 2. – s. 20–25.

6. Elektron informasiya kontekstində xalq deyimlərinin semantik özəllikləri // – Bakı: İpək yolu Azərbaycan Universiteti, – 2020. –№.2, –s. 122–130.

7. İnternet ortamında Covid–19 bağlı folklor nümunələri // – Bakı: Bakı Slavyan Universitetinin Elmi əsərləri, Dil və ədəbiyyat seriyası Bakı Slavyan Universiteti, – 2020. – № 1, – s. 142–150.

8. İnternet resurslarında xalq deyimlərinin yayılma və ötürülməsi // – Bakı: Azərbaycan Mühəndislər Universiteti Gənc Tədqiqatçıların IV Beynəlxalq elmi konfransı, – 2020. –No.4, –s. 75–78.

9. Виртуальный фольклор в социально–культурной среде // – Ukraine: Закарпатские филологические студии, – 2021. – №.14, – с. 263–268.

10. İnternet mühitində yaranan xalq deyimlərinin təsnifatı // – Bakı: 4th International Nowruz Conference On Scientific Research , – 2021. –s. 122–132.

11. İnternet folklorunda xalq deyimlərində gender məsələsinə bir nəzər // – Bakı: World Women Conference II, – 2021. – s. 168–169.

12. Elektron informasiya kontekstindəki xalq deyimlərində gülüşün mahiyyəti // – Bakı: Humanitar və İctimai Elmlər üzrə III Beynəlxalq Elmi Konfrans, – 2021. – s. 94–96

13. Elektron informasiya kontekstində birbaşa ismarıc (deyimlər fonunda) // – Bakı: İpək yolu Azərbaycan Universiteti, – 2021. –№.2, – s. 142–148.

14. İnternet mühitində ana deyimləri // –Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, – 2021. – Cild 12, – №2, – s. 55–59.

15. Elektron informasiya mədəniyyəti kontekstində təsvir mahiyyətli deyimlər // – Bakı: Sosial və Humanitar Elmlər sahəsində müasir tədqiqat üzrə Qarabağ Beynəlxalq Konfransı, – 2021. –s. 84–88.

**Dissertasiyanın müdafiəsi 20 iyun 2025–ci il tarixində saat 14:00 Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurasının iclasında keçiriləcək.**

**Ünvan: AZ1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31**

**Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi Kitabxanasında tanış olmaq mümkündür.**

**Avtoreferatın elektron versiyaları AMEA Folklor İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.**

**Avtoreferat 17 may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.**

**Çapa imzalanıb: 13.05.2025**
**Kağızın formatı: 60x84/ 1/16**
**Həcm: 39 048 işarə**
**Tiraj: 100**